UOT 32
DOI:10.30546/3006-0346.2024.5.83.007

# AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN BƏRPASI HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİNİN MƏRKƏZİ MƏSƏLƏSİ KİMİ

**PƏRVİN İBRAHİMOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı*

*E-mail: parvin.ibrahim.m@gmail.com*

2020-ci ildə 44 günlük müharibə, 2023-cü ilin sentyabrında lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu. Bu nailiyyətlər uzunsürən prosesin nəticəsi idi. Başlanğıcı hələ Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdu.

XX əsrin sonunda Azərbaycanın tarixində yeni bir dövr başladı. 1991-ci il avqustun 30-da "Müstəqillik haqqında Bəyannamə", 1991-ci il oktyabrın 18-də "Müstəqillik haqqında Konstitusiya Aktı" qəbul edildi. Müstəqil dövlətçilik yoluna qədəm qoyan digər dövlətlər kimi, Azərbaycan üçün də çətin mərhələ başladı. Bütün bunlara əlavə olaraq, Azərbaycan işğalla üzləşdi. Ölkəmizin ərazi bütövlüyü pozuldu, qaçqınlar problemi ortaya çıxdı.

Ümummilli Lider Heydər Əliyev prezident seçildikdən sonra (1993-cü il, 3 oktyabr) Azərbaycanın proqressiv inkişafına yönəlmiş, balanslaşmış xarici siyasət yürütməyə başladı.

Qarşıya qoyulmuş problemi təhlil etməzdən əvvəl dövlət ərazisi və dövlətin ərazi bütövlüyü anlayışlarını nəzərdən keçirək.

Dövlət ərazisi – hər hansı dövlətin suverenliyi altında olan əraziyə deyilir. Həmin ərazi çərçivəsində dövlət öz ərazi üstünlüyünü həyata keçirir. Dövlət ərazisinin tərkibinə onun quru ərazisi, daxili suları, ərazi suları, quru ərazisinin, daxili suların və ərazi sularının təki, quru ərazisinin, daxili suların və ərazi sularının üzərində yerləşən hava məkanı daxildir [8, s. 69-70].

Dövlətin ərazi bütövlüyü onun suverenliyinin ayrılmaz elementi olduğundan beynəlxalq hüquqda ayrıca prinsip kimi yer alıb. Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1975 -ci il 1 avqust tarixli Yekun aktında beynəlxalq hüququn 10 əsas prinsipi göstərildi. BMT Nizamnaməsində göstərilmiş 7 prinsipə bu sənəddə 3 yenisi əlavə olundu. Bunlardan biri də dövlətlərin ərazi bütövlüyü prinsipi idi. Bu prinsip BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində dolayı yolla bildirilmişdi: *"Bütün üzvlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər"*.

Bununla belə, ərazi bütövlüyü müstəqil prinsip kimi Helsinki Yekun aktında öz əksini tapmışdı [8, s. 38]. Bu prinsipə görə, dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmət etməli, başqa bir dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqa zidd hərəkətlərdən çəkinməlidirlər.

Azərbaycan Respublikasının Konstitusiyasında da ərazi bütövlüyü məsələsinə toxunulub. Əsas Qanunumuzun preambulasında bəyan edilən altı niyyətdən biri və məhz birincisi ondan ibarətdir ki, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq hər bir vətəndaşın vəzifəsidir [5, s.12]. Heydər Əliyevin fəaliyyətində ərazi bütövlüyünün bərpasına yönəlmiş addımları bir neçə qrupda birləşdirmək məqsədəuyğun olardı:
- dünya dövlətləri ilə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əlaqələrin qurulması;
- iqtisadiyyatın inkişafı, maddi bazanın yaradılması;
- ordu quruculuğu.

1991-1993-cü illərdə AXC-Müsavat cütlüyünün həyata keçirdiyi səriştəsiz xarici siyasət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın nüfuzuna zərbə vurur, onu münaqişəyə və ziddiyyətlərə meyilli dövlət kimi tanıdırdı. Xüsusilə də, regionda böyük təsir imkanlarına malik, Azərbaycanla tarixi-ənənəvi əlaqələri olan Rusiya ilə münasibətlərin kəskinləşməsi münaqişənin xeyrimizə həll olunmasını mümkünsüz edirdi. Bu səbəblərdən, Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra siyasi böhranın aradan qaldırılması və dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində önəmli addımlar atdı. Bunlardan biri 1993-cü ilin sentyabrında Azərbaycanın MDB-yə üzv qəbul olunması idi. Beləliklə, Rusiya ilə mövcud olan gərginliyi tənzimləyə bildi [9, s. 255].

Heydər Əliyev münasibətləri regional səviyyədə möhkəmləndirməklə kifayətlənmir, Azərbaycanın mövqeyini beynəlxalq müstəvidə təmsil edirdi.

1993-cü il dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Fransa prezidenti F. Mitteranın dəvəti ilə Parisdə rəsmi səfərdə olarkən imzaladığı və Azərbaycanın ATƏM-in yeni Avropa üçün Paris Xartiyasına qoşulmasını təsdiq edən sənədlə ölkəsinin BMT prinsiplərinə sadiq olduğunu göstərdi. Heydər Əliyev bununla həm öz üzərinə bir sıra öhdəliklər götürdü, həm də öz sülhsevər mövqeyini ortaya qoydu. Bu, gələcəkdə Azərbaycanın ərazi bütövlüyünün, dövlət müstəqilliyinin əbədi və dönməzliyini təmin etmək üçün atılan vacib addımlardan biri idi [4, s. 152].

Heydər Əliyev dünya ölkələrinə səfər edən zaman dövlət və hökumət başçıları ilə, digər qurumların rəhbərləri ilə müxtəlif səviyyəli görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və tezliklə həll edilməsinə dair fikirləri danışıqların əsas mövzusunu təşkil edirdi. Heydər Əliyev regionun iri dövlətləri – Rusiya, Türkiyə, İranla, habelə dünyanın aparıcı dövlətləri olan ABŞ, Birləşmiş Krallıq, Fransa, Mərkəzi Asiyanın türk respublikaları və başqa dövlətlərlə münasibətlər qururdu.

Xarici təbliğat və informasiya fəaliyyətini qaydaya salmaq üçün ölkə daxilində mühüm işlər görüldü, xarici kəşfiyyat, informasiya və xəfiyyə orqanlarının Azərbaycandakı fəaliyyəti nəzarətə götürüldü [4, s. 150-151].

**Ordu quruculuğu.** 1993-cü il noyabrın 1-də Prezident Heydər Əliyevin Fərmanı ilə Dövlət Müdafiə Şurası yaradıldı və onun ilk iclası keçirildi. Təcili keçirilən bu iclasda ölkənin ordu quruculuğu işi, müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələrində şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə istiqamətləndirilmiş tədbirlər müəyyən olundu [1, s. 160].

Prezident xalqla daim əlaqə yaratmağa üstünlük verir, bu isə öz növbəsində, ona olan inamı və dəstəyi artırırdı. Heydər Əliyev 1993-cü il noyabrın 2-də erməni işğalçılarına qarşı mübarizəyə səsləmək üçün radio və televiziya vasitəsilə xalqa müraciət etdi. Bu öz müsbət nəticələrini bir neçə aydan sonra verəcəkdi.

1993-cü il noyabrın 23-də Azərbaycan Respublikasının Ali Soveti "Müdafiə haqqında" qanun qəbul etdi. Həmin qanun Azərbaycan Respublikası müdafiəsinin təşkilinin əsaslarını müəyyənləşdirirdi.

Heydər Əliyev hərbi hissələrə səfər edir, hərbçilərin xidmət şəraiti ilə tanış olurdu. Prezidentin diqqət və qayğısı orduda milli ruhu yüksəldirdi.

1994-cü ilin yanvarında 5-də Azərbaycan Ordusu uğurlu əməliyyatlar keçirməyə başladı. Füzuli rayonunun strateji əhəmiyyətli Horadiz qəsəbəsi, 22 kəndi, Cəbrayıl rayonunun ərazisinin bir hissəsi, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çənli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Qamışlı, Bağırlı yaşayış məntəqələri düşmən işğalından azad olundu. Çiçəklidağ və başqa strateji yüksəkliklər ələ keçirildi, Kəlbəcər-Ağdərə yolunun tunelə qədərki hissəsi nəzarət altına alındı [1, s. 162].

Müharibə Azərbaycan xalqının genofonduna böyük zərbə vurmuş, infrastrukturlar, çox sayda mədəniyyət abidələri dağıdılmış, təbiətə zərər dəymişdi. Hərbi əməliyyatların dayandırılması, atəşkəs imzalanması labüd idi.

1994-cü il aprelin 15-də Azərbaycan və Ermənistan prezidentləri MDB-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məqsədilə hər iki tərəf arasında atəşkəsə nail olunmasını prioritet hesab etməsini və bu istiqamətdə RF-in vasitəçilik missiyasını yerinə yetirməyə hazır olmasını təqdirəlayiq hal kimi qiymətləndirdilər.

MDB Parlamentlərarası Assambleya 1994-cü il mayın 4-5-də Bişkekdə Ermənistan və Azərbaycan parlamentlərinin nümayəndələrinin görüşünü təşkil etdi. Ermənistan parlamentinin nümayəndə heyətinə parlamentin spikeri B.Ararksyan, Azərbaycan parlamentinin nümayəndə heyətinə Milli Məclisin sədr müavini A.Cəlilov, Dağlıq Qarabağ nümayəndə heyətinə isə tanınmamış "Dağlıq Qarabağ Respublikasının parlament spikeri" K.Baburyan başçılıq edirdi. Orada ikigünlük diskussiyalar keçirildi. Həmin vaxt Heydər Əliyev NATO-nun sessiyasında iştirak etmək üçün Brüsseldə olduğundan, A. Cəlilov protokolu imzalamağa tələsmədi.

May ayının 8-də Rusiya vasitəçilik missiyasının sədri V.N.Kazimirov Bakıya səfər edərək, atəşkəsə nail olunması üçün hazırlanmış Bişkek protokolu ilə Heydər Əliyevi tanış etmişdir. Bişkek protokolonun Azərbaycanın mənafeyinə xələl gətirmədiyinə əmin olduqdan sonra Heydər Əliyev bu protokolun imzalanmasına razılıq verdi. Atəşkəs rejiminin tətbiq edilməsi ilə bağlı mayın 9-da Bakıda, mayın 10-da İrəvanda, mayın 11-də Xankəndidə müvafiq sənədlər imzalanmışdır. Beləliklə, 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəs rəsmi qüvvəyə mindi [9, s. 156-157].

Ordu quruculuğunda, heç şübhəsiz, ən vacib məsələ hərbi kadrların hazırlanması idi. Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında 2000-ci il 5 aprel tarixli protokola uyğun olaraq, Azərbaycan Respublikası müdafiə nazirinin 20 fevral 2001-ci il tarixli əmrinə əsasən, NATO təlim sisteminin Azərbaycan Silahlı Qüvvələrində tətbiqi ilə əlaqədar, 2001-ci il martın 26-dan zabit heyətinin təkmilləşdirilmə, gizir hazırlığı və ehtiyat zabit hazırlığı kursları bazasında Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi fəaliyyətə başlayıb. Təlim və Tədris Mərkəzi Azərbaycan Ordusu üçün tələb olunan istiqamətlər və ixtisaslar üzrə kadr hazırlığını həyata keçirən və hərbi-elmi işlərin aparılmasını təmin edən əlavə təhsil müəssisəsidir. Əlavə təhsil kadr potensialının təkmilləşdirilməsini, hərbi qulluqçuların daim dəyişən və yenilənən xidmət şəraitinə uyğunlaşmasını təmin edir [10].

Sülh danışıqları aparılsa da, Heydər Əliyev gələcəkdə münaqişənin müharibəsiz həll edilə bilməyəcəyini anlayırdı. Bunun üçün ilk növbədə, keçid dövrünü yaşayan Azərbaycanın iqtisadiyyatı gücləndirilməli və şaxələndirilməli idi. Lakin ilkin mərhələdə iqtisadiyyat bir xətt üzrə - karbohidrogen ehtiyatlarının ixracı hesabına inkişaf etdirilə bilərdi. İqtisadiyyatın böhranlı vəziyyətdən çıxarılması üçün xarici investisiyalar cəlb edilməli idi.

1994-cu il sentyabrın 20-də Azərbaycan dünyanın aparıcı neft şirkətləri ilə "Azəri”, “Çıraq" və "Günəşli" yataqlarının dərin hissəsinin birgə kəşfiyyatı və işlənməsi üzrə 7 ölkənin 11 məşhur şirkəti ilə “Əsrin müqaviləsi" adlandırılan saziş bağladı. Bu ölkələr ABŞ, Rusiya, Böyük Britaniya, Yaponiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanı idi. Enerji sektorunda fəaliyyət göstərən şirkətlərə BP, Unokal, Exxon Mobil, Devon Energy (Pennzoil), TPAO, Statoil, Lukoil, Itochu, Agip, Chevron, ENI, Halliburton, Schlumberger, Kvaerner, Maritime və başqalarını misal göstərmək olar.

“Əsrin müqaviləsi”nə əsasən, ölkəyə daxil olan xarici investisiyalardan düzgün və səmərəli istifadə olunması üçün Prezident Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli Fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. ARDNF neft və qazdan əldə edilən gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini və gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi qurumdur [2, s. 35-36]. Azərbaycanı müstəqil neft ixracatçısı kimi tanıdan, 2006-cı ildə tam fəaliyyətə başlamış Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin özülü də Heydər Əliyevin dövründə (2002, 18 sentyabr) qoyulmuşdu.

Məqalənin əvvəlində də qeyd edildiyi kimi, Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olmaq üçün uzun bir yol qət olunmuşdu. Son nailiyyətlər hərbi müstəvidə əldə olunsa da, diplomatik sahədə qazanılmış uğurlar – beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş sənədlər II Qarabağ müharibəsində hüquqi əsas rolunu oynadı.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) münaqişə ilə bağlı qəbul etdiyi sənədlərə diqqət yetirək. Təşkilatın Budapeşt sammitində ilk dəfə olaraq, Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. Dünyanın aparıcı dövlət başçıları və siyasi xadimləri B. Klinton, B. Butros-Qali, T. Çillər və b. çıxış edərək münaqişənin həllində ATƏT-in mühüm rolunu vurğuladılar və səylərin artırılmasının zəruriliyini qeyd etdilər [7, s. 455].

Dekabrın 6-da Budapeşt sammitində Azərbaycan Prezidenti Heydər Əliyev çıxış etdi. Budapeştdə Dağlıq Qarabağ ətrafında baş verən münaqişənin dayandırılması, atəşkəs rejiminin qorunması, münaqişənin həlli yollarının axtarılması, onun sülh yolu ilə aradan qaldırılması və Böyük Sülh Sazişinin hazırlanması ilə bağlı bütün vəzifələr ATƏT-in Minsk qrupuna və ona həmsədrlik edən Rusiya və Finlandiyaya tapşırıldı. Beləliklə, Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyinin aktual məsələsinə çevrildi [7, s. 458].

ATƏT-in 1996-cı ildə keçirilən Lissabon sammitində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bir daha müzakirəyə qoyuldu. Heydər Əliyev bu sammitin işində də fəal iştirak edərək, iki dəfə çıxış etmişdi. Lissabonda səfərdə olduğu müddətdə Portuqaliya, Danimarka, Türkiyə, Rusiya, BƏƏ-dən olan jurnalistlərə müsahibə vermiş, Azərbaycanın haqq işini, müharibə həqiqətlərini müxtəlif dünya ölkələrinə çatdırmışdır. ATƏT-in Fəaliyyətdə olan Sədrinin 3 dekabr 1996-cı il tarixli Bəyanatında deyilirdi: “Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə etmişlər. Onlar aşağıdakılardır:

- Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağın Azərbaycan tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən ən yüksək özünüidarəsini təmin

edən hüquqi statusu;

- Məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi" [3, s. 98].

Beləliklə, nüfuzlu təşkilat çərçivəsində münaqişənin ancaq ərazi bütövlüyünün qorunub saxlanılması ilə həll edilməsinin mümkünlüyü vurğulandı.

ATƏT-in növbəti – 1999-cu ilin noyabrında keçirilən İstanbul sammitində də Heydər Əliyev iştirak etmiş, çıxışında Cənubi Qafqaz regionunun Avropanın ayrılmaz hissəsi olduğunu vurğulamışdır. O, Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif edirdi. Qeyd etdi ki, regionda təcavüzə, etnik təmizləmələrə, separatçılığa və terrorizmə son qoyulmalıdır. Cənab prezident Ermənistanın Azərbaycana vurduğu zərərləri bir-bir sadalamış oldu [6, s. 62]. İstanbul Zirvə görüşünün Bəyannaməsində həmin il İrəvanda ATƏT-in ofisinin açılması və analoji ofisin Bakıda açılması qərarı alqışlanırdı.

Bundan başqa, Avropa Şurası Parlament Assambleyasının qətnamə və tövsiyələrində Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyəti (1995-ci il), Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar (2001-ci il), Azərbaycanın mədəni irsinin zəbt edilməsi və dağıdılması (2001-ci il), Azərbaycan Respublikasında ekoloji vəziyyət (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) (2001-ci il), Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyası və nüvə tullantılarının basdırılması (2002-ci il), Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində ermənilər tərəfindən dəstəklənən terrorçu təşkilatlar şəbəkəsi (2002-ci il) kimi ölkəmizi və xalqımızı narahat edən məsələlərə yer ayrılmışdır. Ermənistanın işğalçılıq siyasətinin iç üzü bu sənədlərdə göstərilib.

Ümummilli Lider Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul edilməsi üçün çox səy göstərmiş, dövlət quruculuğunda mühüm addımlar atmışdı. Ölüm hökmünün, mətbuatda senzuranın ləğvi, insan hüquqları üzrə müvəkkil institutunun yaradılması buna misaldır. Onun gərgin əməyi öz bəhrəsini vermiş, Ermənistanın təcavüzü AŞ tərəfindən qəbul olunan sənədlərdə ifşa olunmuşdu.

Uzun illərdir mətbuatda və insanlar arasında beynəlxalq təşkilatların münaqişənin həllində təsirsiz olması barədə söylənilən populist fikirlərə əks olaraq qeyd etmək istərdik ki, bu sənədlər Azərbaycanın haqq savaşına başlaması üçün hüquqi baza yaratmışdı. Əgər həmin sənədlər olmasaydı, Azərbaycana edilən təzyiq daha da çox olardı. Heydər Əliyevin uzaqgörən xarici siyasət yürüdərək diplomatik sahədə qazandığı uğurlar Prezident İlham Əliyev tərəfindən davam etdirilmiş və Azərbaycan Ordusu müharibədə qələbə çalaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir.

Heydər Əliyev ərazi bütövlüyünün bərpasına nail olmaq üçün kompleks tədbirlər gördü - ordu quruculuğunu həyata keçirdi, ölkənin təbii ehtiyatlarından səmərəli istifadə edib, xarici investisiyaları cəlb edərək iqtisadiyyatı dirçəltdi, balanlaşdırılmış siyasət yürüdərək Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil etdi, beynəlxalq təşkilatların və dünyanın aparıcı dövlətlərinin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönləndirdi.

**Açar sözlər:** *ərazi bütövlüyü, müharibə, işğal, ordu quruculuğu, xarici siyasət, beynəlxalq təşkilatlar.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının tarixi (1991-2003). 1-ci cild. Heydər Əliyev dövrü. / Redaksiya heyəti: Əlizadə A., Həbibbəyli İ. və b. / Bakı: "Azərbaycan Tarixçiləri İctimai Birliyi", 2016. - 704 s.*

*2. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası / Elmi redaktor: Muradov Ə./ Monoqrafiya, Bakı: "Şərq-Qərb", 2019. - 328 s.*

*3. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab. Bakı: "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu", 2015. – 324 s.*

*4. Hacıyev Q. Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü. Bakı: "Füyuzat", 2023. - 368 s.*

*5. Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası / Redaktor və ön sözün müəllifi: Həsənova S./ Bakı: "Azərbaycan", 2011. - 304 s.*

*6. Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik" (konfrans materialları). Bakı: "Əbilov, Zeynalov və oğulları", 2006, 472 s.*

*7. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: "Azərbaycan", 2005. - 752 s.*

*8. Hüseynov L. Beynəlxalq hüquq. Dərslik. Bakı: "Qanun", 2012. - 368 s.*

*9. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: "Çaşıoğlu", 2008 - 672 s.*

*10. https://mod.gov.az/az/azerbaycan-ordusunun-telim-ve-tedris-merkezi-112/*

**Парвин Ибрагимова**
***Докторант кафедры международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

**Восстановление территориальной целостности Азербайджана как центральный вопрос внешней политики Гейдара Алиева**

**РЕЗЮМЕ**

В статье принцип территориальной целостности государства рассматривается в контексте международного права. Приводятся успешные военные операции, проведённые под руководством Гейдара Алиева. Заключение соглашения о прекращении огня считается как фактор, определяющий развитие страны. Политика Гейдара Алиева, направленная на восстановление территориальной целостности, анализируется по трём направлениям: строительству армии, экономическому возрождению, установлению дипломатических отношений с ведущими странами мира и международными организациями. Обращается внимание на некоторые документы, принятые в исследуемый период, их сущность и значение.

**Ключевые слова:** *территориальная целостность, война, оккупация строительство армии, внешняя политика,международные организации.*

**Parvin Ibrahimova**
***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, International Relations and Foreign Policy Department, doctoral researcher***

**Restoring the territorial integrity of Azerbaijan as a central issue in Heydar Aliyev's foreign policy**

**SUMMARY**

The article explores the principle of state sovereignty and territorial integrity within the framework of international law. It underscores the successful military operations conducted under the leadership of Heydar Aliyev. The ceasefire agreement is examined as a pivotal factor in shaping the country's developmental trajectory.

Heydar Aliyev's policy aimed at the restoration of territorial integrity is analyzed across three key dimensions: military capacity building, economic revitalization, and the establishment of diplomatic relations with global powers and international organizations. The article also addresses several key documents adopted during the period under review, emphasizing their significance and implications.

**Key words:** *territorial integrity, war, occupation, army building, foreign policy, international organizations*